**2025-ci ilin yanvar ayı ərzində müayinə və texniki xidmət üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin əməkdaşları tərəfindən 2025-ci il yanvarın 8-dən 31-dək qaz paylayıcısı olan “Azəriqaz” İstehsalat Birliyində, qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinq keçirilmişdir.

Monitorinq nəticəsində qazpaylayıcı tərəfindən “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 6-1-ci, 6-2-ci və 6-3-cü maddələrinin tələblərinə tam şəkildə əməl edilmədiyi və müayinə və texniki xidmət üzrə işlərin təşkili zamanı bir sıra nöqsan və qanun pozuntularına yol verildiyi müəyyən edilmişdir.

Müəyyən edilmiş nöqsan və qanun pozuntularının aradan qaldırılması məqsədilə Agentlik tərəfindən qaz paylayıcısına icrası məcburi olan göstəriş verilmiş, həmçinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanılaraq qaz paylayıcısı barəsində tərtib edilmiş inzibati xəta haqqında protokol və  digər materiallar  baxılması üçün məhkəməyə göndərilmişdir.